**Təsdiq edirəm:**

Biznes mühiti və beynəlxalq reytinqlər<br>üzrə Komissiyanın sədri, Azərbaycan<br>Respublikası Baş nazirinin birinci<br>müavini Yaqub Eyyubov

__________________

01.05.2024-cü il

# Dünya Bankı Qrupunun “Business Ready” layihəsinin “Bazar rəqabəti” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi

<table>
<tr><th>Sıra №-si</th><th>Alt komponentlərin tələbləri</th><th>Görüləcək tədbirlər</th><th>Son icra müddəti</th><th>İcraçı qurumlar</th><th>Məsul şəxslər</th></tr>
<tr><td colspan="6">1. Bazar rəqabətini təşviq edən qaydaların keyfiyyəti</td></tr>
<tr><td colspan="6">1.1. Rəqabət qaydalarının keyfiyyəti</td></tr>
<tr><td colspan="6">1.1.1. Dövlət müəssisələri ilə bağlı hüquqi çərçivə</td></tr>
<tr><td>1.1.1.1.</td><td>Dövlət müəssisələrinin yaradılmasının rəqabət qurumu tərəfindən qiymətləndirilməsi</td><td rowspan="2">Dövlət müəssisələrinin (o cümlədən yaradılması nəzərdə tutulan müəssisələrin) rəqabət qurumu tərəfindən qiymətləndirilməsi, onların fəaliyyətində sağlam rəqabətin pozulmasına səbəb ola biləcək halların mövcudluğunun və ya rəqabət baxımından neytrallığının araşdırılması məqsədilə qanunvericiliyə dəyişiklik edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td><td rowspan="2">01.11.2024</td><td rowspan="2">İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td rowspan="2">Fuad Yadigarov, Vaqif Ataşov</td></tr>
<tr><td>1.1.1.2.</td><td>Dövlət müəssisələri yaradılarkən və onların fəaliyyəti müddətində sağlam rəqabəti məhdudlaşdıra biləcək təsirlərinin istisna edilməsi məqsədilə müvafiq yoxlamaların aparılması</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.1.2.** | **Antiinhisar tənzimləmə vasitələri (kartellər, üfüqi sazişlər, şaquli sazişlər və hökmran mövqedən sui-istifadə daxil olmaqla)** | | | | |
| 1.1.2.1. | Rəqabət qurumu ilə araşdırma üzrə əməkdaşlıq edən təşkilatlara güzəşt proqramlarının tətbiqi və prosessual zəmanətlərin təmin olunması | Rəqabət qurumu ilə əməkdaşlıq edən təşkilatlara güzəşt proqramlarının tətbiqi barədə alt komponentlərin tələblərinin təmin edilməsi məqsədilə Rəqabət Məcəlləsinə dəyişiklik edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Şahin Nağıyev, Fuad Yadigarov, Vaqif Ataşov |
| 1.1.2.2. | Rəqabət qurumu ilə araşdırma üzrə əməkdaşlıq edən təşkilatların anonimlik və konfidensiallığının qorunması | | | | |
| 1.1.2.3. | Rəqabət qurumu ilə əməkdaşlıq edərək araşdırma üzrə məlumat vermiş şəxs və təşkilatların qoruması (“whistleblower protection”) | | | | |
| **1.1.3.** | **Birləşmələrə nəzarət** | | | | |
| 1.1.3.1. | Qanunvericilikdə birləşmələrə çoxfazalı nəzarət mexanizminin təsbit edilməsi | Birləşmələrə çoxfazalı nəzarət mexanizmləri ilə bağlı Rəqabət Məcəlləsinə dəyişiklik edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Fuad Yadigarov, Vaqif Ataşov |
| 1.1.3.2. | Qanunvericilikdə birləşmələrə sadələşdirilmiş nəzarət mexanizmi və icra müddətlərinin təsbit edilməsi | | | | |
| **1.1.4.** | **Məcburetmə** | | | | |
| 1.1.4.1. | Rəqabət qurumunun tətbiq edilmiş maliyyə sanksiyalarını toplamaq və qeyri-maliyyə sanksiyalarını tətbiq etmək hüququnun olması | Alt komponentin tələblərinin təmin edilməsi məqsədilə qanunvericilikdə dəyişiklik edilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Şahin Nağıyev, Fuad Yadigarov, Vaqif Ataşov |

<table>
<tr><th colspan="6">1.2. İnnovasiya və texnologiya transferini təmin edən qaydaların keyfiyyəti</th></tr>
<tr><td colspan="6">1.2.1. Əqli mülkiyyət hüquqlarının müdafiəsi səviyyəsi</td></tr>
<tr><td>1.2.1.1.</td><td>Patentlə mühafizə olunan sənaye mülkiyyəti obyektlərindən elmi-tədqiqat məqsədilə istifadəyə dair istisnaların qanunvericilikdə müəyyən edilməsi</td><td>“Patent haqqında” Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edilməsi ilə bağlı qanun layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td><td rowspan="2">01.07.2024</td><td rowspan="2">Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td rowspan="2">Gülnarə Rüstəmova, Orxan Məmmədov</td></tr>
<tr><td>1.2.1.2.</td><td>Qeydiyyata alınmış əmtəə nişanından istifadəyə dair hüquq sahibinin öhdəlik götürməsi ilə bağlı tələbin qanunvericiliklə müəyyən edilməsi</td><td>“Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edilməsi ilə bağlı qanun layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td></tr>
<tr><td colspan="6">1.2.2. Açıq əldəetmə və innovasiyalardan ədalətli istifadə</td></tr>
<tr><td>1.2.2.1.</td><td>Qanunvericilikdə açıq əldə edilə bilən (open access) və ya açıq mənbəli (open source) məlumat (kontent) anlayışlarının olması</td><td>Müvafiq anlayışların qanunvericiliyə daxil edilməsi ilə bağlı layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td><td>01.07.2024</td><td>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td>Elgün Vəliyev, Orxan Məmmədov</td></tr>
<tr><td colspan="6">1.2.3. Universitet-sənaye əməkdaşlığı</td></tr>
<tr><td>1.2.3.1.</td><td>Tədqiqat əməkdaşlığı və ya konsorsium müqavilələrinin standart modelinin mövcudluğu</td><td>Tədqiqat əməkdaşlığı və ya konsorsium müqavilələrinin standart modeli layihəsinin hazırlanması</td><td rowspan="3">01.07.2024</td><td rowspan="3">Elm və Təhsil Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td>Yadulla Həsənli, Əli Qasımzadə, Orxan Məmmədov</td></tr>
<tr><td>1.2.3.2.</td><td>Universitetlərdə və elmi-tədqiqat müəssisələrində edilən ixtiralara və tədqiqat nəticələrinə hüquq sahibliyinin əldə edilməsinə və əqli mülkiyyət hüquqlarının tənzimlənməsinə dair meyarların və qaydaların müəyyən edilməsi</td><td rowspan="2">Alt komponentlərin tələblərinin təmin edilməsi məqsədilə “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edilməsi barədə layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td><td rowspan="2">Altay İsmayılov, Gülnarə Rüstəmova, Orxan Məmmədov</td></tr>
<tr><td>1.2.3.3.</td><td>Yeni məhsulun və ya prosesin kommersiyalaşdırılması üçün universitet “spin-off”larının (tədqiqat nəticəsində yaradılmış texnologiyaya əsasən təsis edilən yeni şirkətlər) yaradılması şərtlərinin qanunvericiliklə müəyyən edilməsi</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.3.** | **İctimai kontraktlar üzrə tender qaydalarının keyfiyyəti** | | | | |
| **1.3.1.** | **İctimai kontraktlar üzrə tender tənzimləməsinin keyfiyyəti** | | | | |
| 1.3.1.1. | Qanunvericilikdə kontraktların ikimərhələli rəqabətli prosesdə qiymətləndirilən çərçivə sazişi əsasında bağlanılması prosedurunun müəyyən edilməsi | Qanunvericilikdə müəyyən olunmuş çərçivə sazişi prosedurunun tətbiqi ilə bağlı hesabat formasının yaradılması | 01.08.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Əhməd Həsənov |
| 1.3.1.2. | KOB subyektlərinin dövlət satınalmalarında iştirakının təşviq edilməsi üçün qanunvericilikdə əlavə şərtlərin (kvota, qısa ödəniş müddətləri, rezerv məhsullar, hissələr, kənara qoymalar, maliyyə qarantiyası istisnaları) mövcudluğu | KOB subyektlərinin dövlət satınalmalarında iştirakının təşviqinə dair qanunvericilik müddəalarının tətbiqinin effektivliyi təhlil edilməklə təkliflərlə birlikdə müvafiq hesabatın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2024 | | |
| **1.3.2.** | **Pul üçün ən yaxşı dəyər** | | | | |
| 1.3.2.1. | Tenderin şərtlər toplusunun nümunəvi formalarına dayanıqlılıq şərtlərinin əlavə edilməsi və bunun qanunvericiliklə stimullaşdırılması | Standart tender sənədlərinə dayanıqlılıq şərtlərinin əlavə edilməsinin təmin edilməsi üçün qanunvericilikdə əlavə və dəyişikliklər edilməsinə dair layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)İ | Əhməd Həsənov |
| 1.3.2.2. | Dövlət satınalmaları zamanı “ən səmərəli təklif” yanaşmasının “ən aşağı qiymət” yanaşmasından üstün tutulmasının qanunvericilikdə açıq şəkildə tövsiyə edilməsi | Dövlət satınalmaları zamanı “Ən səmərəli təklif” meyarlarının qanunvericilikdə nəzərdə tutulması ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | |
| 1.3.2.3. | Qanunvericilikdə innovasiya satınalmaları üzrə xüsusi tənzimlənən prosedur və ya proqramların, həmçinin belə proqramların formalaşdırılması və tətbiqi qaydalarının mövcudluğu | İnnovasiya satınalmalarına dair tələblərin qanunvericiliyə daxil edilməsi üçün bazar araşdırmasının aparılması və nəticələrinə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | | | |
| **1.3.3.** | **Şəffaflıq** | | | | |
| 1.3.3.1. | Qanunvericilikdə şərtlər toplularının (layihəyə məxsus), müqavilələrin və müqavilələrə dəyişikliklərin açıq yayımlanmasının təsbiti | Dövlət satınalmalarının vahid internet portalında müqavilələr üzrə məlumatların əlavə edilməsi funksionallığının təkmilləşdirilməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Əhməd Həsənov |

## 2. İctimai xidmətlər: bazar rəqabətini təşviq edən ictimai xidmətlərin adekvatlığı

### 2.1. İnstitusional çərçivə və rəqabət qaydalarının icra məcburiliyinin keyfiyyəti

#### 2.1.1. Rəqabət qurumunun institusional çərçivəsi

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.1.1.1. | Rəqabət qurumunun qərar verən səlahiyyətli şəxslərinin (strukturdan asılı olaraq) işə təyin edilməsi və ya işdən azad edilməsi ilə bağlı müvafiq hüquqi prosedurun (due process) mövcudluğu | İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsinə alt komponentlərin müvafiq tələblərini ehtiva edən müddəaların daxil edilməsinə dair layihənin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Vaqif Ataşov, Aytən Hüseynova, Şahin Nağıyev, Fuad Yadigarov |
| 2.1.1.2. | Rəqabət qurumunun qərar verən səlahiyyətli şəxslərinin səlahiyyət müddətinin olması | | | | Vaqif Ataşov, Şahin Nağıyev, Fuad Yadigarov |
| 2.1.1.3. | Rəqabət qurumunun qərar verən səlahiyyətli şəxslərinin və ya əməkdaşlarının səlahiyyət müddətləri bitdikdən sonra dövlət qurumları və ya öncədən araşdırılmış şirkətlərdə işləyə bilmələri üçün gözləmə müddətinin (“cooling-off” period) olması | | | | |
| 2.1.1.4. | Rəqabət qurumunun rəylərinin hüquqi qüvvəsinin olması, digər dövlət qurumları rəqabət qurumunun rəyləri ilə razılaşmadıqları hallarda onların bu barədə rəqabət qurumuna əsaslandırılmış rəy təqdim etmə öhdəliyi | Alt komponentin tələbləri ilə bağlı qanunvericilikdə əlavə və dəyişikliklər edilməsinə dair layihənin hazırlanaraq “Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunda müzakirə edilməsi və yekun layihənin aidiyyəti üzrə təqdim edilməsi | | | |

#### 2.1.2. Təşviq və şəffaflıq

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.1.2.1. | Rəqabət qurumu tərəfindən üfüqi və şaquli sazişlər, əməkdaşlıq müqavilələri, hökmran mövqedən sui-istifadə, bazarın müəyyən edilməsi, rəqəmsal platformalar və ya çoxtərəfli bazarlar, birləşmələrə nəzarət və güzəşt proqramları ilə bağlı təlimatların hazırlanması | Müvafiq sahələr üzrə təlimatların hazırlanaraq təsdiq edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması | 01.07.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Fuad Yadigarov, Şahin Nağıyev, Vaqif Ataşov |
| 2.1.2.2. | Antiinhisar və birləşmələrə nəzarət sahəsində qəbul edilmiş bütün qərarların rəqabət qurumu tərəfindən onlayn yayımlanması | İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən antiinhisar və birləşmələrə nəzarət sahəsində qəbul edilmiş qərarların onlayn yayımlanmasının təmin edilməsi | | | Şahin Nağıyev, Fuad Yadigarov, Vaqif Ataşov, Gülnar Hüseyn |

<table>
<tr><th colspan="6">2.2. Şirkətlərdə innovasiyanı aktivləşdirən ictimai xidmətlər</th></tr>
<tr><td colspan="6">2.2.1. Əqli mülkiyyət xidmətlərinin rəqəmsallaşdırılması</td></tr>
<tr><td>2.2.1.1.</td><td>Əqli mülkiyyət sahəsində potensial alıcı və satıcıları birləşdirən rəqəmsal platformanın mövcudluğu</td><td>Müvafiq platformanın təsis edilməsi üçün ilkin layihənin hazırlanaraq “Əmtəə bazarının səmərəliliyi və rəqabət” işçi qrupunda müzakirə edilməsi və yekun layihənin aidiyyəti üzrə təqdim edilməsi</td><td rowspan="2">İl ərzində</td><td>Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td>Elnur Müslümov, Orxan Məmmədov</td></tr>
<tr><td>2.2.1.2.</td><td>“Yaşıl texnologiya” onlayn platformasının mövcudluğu</td><td>“Yaşıl texnologiya” onlayn bazarlarının yaradılması məqsədilə müvafiq sənəd layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td><td>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td>Ceyhun Hüseynzadə, Əli Qasımzadə, Orxan Məmmədov</td></tr>
<tr><td colspan="6">2.2.2. İnnovasiya sistemləri</td></tr>
<tr><td>2.2.2.1.</td><td>Universitetlər və ictimai tədqiqat qurumları çərçivəsində aparılan tədqiqatların kommersiyalaşdırılması üzrə məsul olan texnologiya transferi ofislərinin mövcudluğu</td><td>Universitetlər və ictimai tədqiqat qurumları çərçivəsində aparılan tədqiqatların kommersiyalaşdırılmasına müvafiq ofisin cavabdehliyinin təmin edilməsi üçün qanunvericilik layihəsinin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td><td rowspan="2">01.07.2024</td><td>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Elm və Təhsil Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td>İnarə Vəliyeva, Qafar Bağırov, Əli Qasımzadə, Orxan Məmmədov</td></tr>
<tr><td>2.2.2.2.</td><td>Texnologiya istehsalını təmin edən “İnnovasiya asanlaşdırıcısı: tənzimləyici sahə” (“Innovation facilitators: Regulatory sandboxes”) yanaşmasının tətbiqi</td><td>“İnnovasiya asanlaşdırıcısı: tənzimləyici sahə” (“Innovation facilitators: Regulatory sandboxes”) yanaşmasının meyarlarına dair müvafiq sənəd layihəsinin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td><td>Əqli Mülkiyyət Agentliyi, İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td>Əli Qasımzadə, Orxan Məmmədov</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.2.2.3. | İnnovasiya inkubatorları, sürətləndiriciləri və klasterlərinin mövcudluğu | İnnovasiya inkubatorları, sürətləndiriciləri və klasterlərinin təsis edilməsi məqsədilə müvafiq layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | İnarə Vəliyeva, Orxan Məmmədov |
| 2.2.2.4. | Dövlət qurumları tərəfindən özəl sektorun rəhbərlik etdiyi innovasiya inkubatorları və ya sürətləndiricilərinə maliyyə yardımının göstərilməsi | Özəl sektorun rəhbərlik etdiyi innovasiya inkubatorları və ya sürətləndiricilərinə müvafiq maliyyə yardımının göstərilməsi ilə əlaqədar mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | | | |
| 2.2.2.5. | İctimai tədqiqat qurumları tərəfindən özəl sektorun rəhbərlik etdiyi innovasiya inkubatorları və ya sürətləndiricilərinə texniki dəstəyin göstərilməsi | Özəl sektorun rəhbərlik etdiyi innovasiya inkubatorları və ya sürətləndiricilərinə müvafiq texniki dəstəyin göstərilməsi ilə əlaqədar mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | | | |
| **3.1. E-satınalma xidmətlərinin keyfiyyəti** | | | | | |
| **3.1.1. E-satınalma portalına açıq giriş və interaktivlik** | | | | | |
| 3.1.1.1. | Müqavilələrə dair məlumatların elektron satınalma portalında sistem tərəfindən oxuna bilən formatda yayımlanması | Müqavilələrə dair məlumatların elektron satınalma portalında müvafiq formatda yayımlanmasının təmin edilməsi | 01.08.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Əhməd Həsənov |
| 3.1.1.2. | Tenderlər üzrə təzhizatçı və ya subpodratçıların məlumatlarının (cinsiyyətə görə təsnifləşdirilmiş) yayımlanması | Elektron satınalma portalında təchizatçı və subpodratçılara dair məlumatların cinsiyyətə görə təsnifləşdirilmiş şəkildə yayımlanması | | | |
| **3.1.2. Şəffaflıq** | | | | | |
| 3.1.2.1. | Elektron satınalma portalında eko-etiketlərə və ətraf mühit baxımından əlverişli məhsullara (xidmətlərə) dair xüsusiyyətlər, standartlar və ya kriteriyaların əlçatan olması | Elektron satınalma portalında eko-etiketlərə və ətraf mühit baxımından əlverişli məhsul və xidmətlərə dair müvafiq məlumatların yerləşdirilməsi | 01.08.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Əhməd Həsənov |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.1.3.** | **Satınalma prosedurlarının rəqəmsallaşdırılması** | | | | |
| 3.1.3.1. | Satınalma portalında satıcı eko-sertifikatları və ya eko-etiketləri üçün müraciət imkanının mövcudluğu | Elektron satınalma portalının alt komponentlərin tələblərinə uyğun təkmilləşdirilməsinin təmin edilməsi | 01.08.2024 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Əhməd Həsənov |
| 3.1.3.2. | Satınalma portalında invoysların satınalan quruma təqdim edilməsi imkanının mövcudluğu | | | | |
| 3.1.3.3. | Satınalma portalında elektron tərs auksion modulunun mövcudluğu | | | | |
| 3.1.3.4. | Satınalma portalında yaşıl kataloqların mövcudluğu | | | | |

*“Dünya Bankı Qrupunun “Business Ready” layihəsinin “Bazar rəqabəti” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi”nə*

*Əlavə*

**Rəqabət qanunvericiliyi və bazar rəqabəti sahəsində aparılan islahatlarla bağlı 2024-cü il üzrə maarifləndirmə və kommunikasiya Planı**

| Sıra №-si | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurum | Tədbirin hədəfi olan şəxslər (qurumlar) | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| 1 | Rəqabət Məcəlləsində yer alan yeni anlayışların, onun tətbiq dairəsinin, bazar iştirakçılarının rəqabət qanunvericiliyindən irəli gələn məsuliyyətlərinin, habelə Məcəllədən gözləntilərin bazar subyektlərinin və əhalinin diqqətinə çatdırılması | Dövri olaraq (01.06.2024 01.08.2024 01.10.2024 15.12.2024) | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Bazar subyektləri və geniş ictimaiyyət | Şahin Nağıyev, Xamis Seyranov, Fuad Yadigarov, Gülnar Hüseyn |
| 2 | İqtisadi mühitlə əlaqəli bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının, təbii inhisar subyektlərinin və sahəvi tənzimləyici orqanların rəhbərləri ilə Rəqabət Məcəlləsindən irəli gələn məsələlərin müzakirəsi ilə bağlı görüşün keçirilməsi | 01.07.2024 | | Dövlət orqanları, təbii inhisar subyektləri | Xamis Seyranov, Faiq Rza |
| 3 | Azərbaycan Respublikası Audiovizual Şurası ilə birlikdə Rəqabət Məcəlləsində yer alan yeni anlayışlara və haqsız rəqabət hallarına qarşı dövlət nəzarəti tədbirlərinə dair seminarın keçirilməsi | | | Azərbaycan Respublikası Audiovizual Şurası | Şahin Nağıyev, Faiq Rza |
| 4 | Rəqabət Məcəlləsinin iqtisadi əhəmiyyətini, rəqabət mühitinin qorunmasına dair qanunvericilik çərçivəsinin mahiyyətini və ondan gözləntiləri özündə əks etdirən yazılı materialların hazırlanması və dərc edilməsi | Dövri olaraq (01.07.2024 01.09.2024 01.10.2024 15.12.2024) | | Bazar subyektləri və geniş ictimaiyyət | Şahin Nağıyev, Xamis Seyranov, Fuad Yadigarov, Gülnar Hüseyn |
| 5 | Bazar subyektlərinin ictimai birlikləriylə birgə Rəqabət Məcəlləsində təsbit edilən yeni anlayışların, bazar iştirakçılarının rəqabət nöqteyi-nəzərdən bazara olan tələblərinin, habelə Məcəllədə təsbit edilən bir sıra digər məqamların müzakirə edildiyi seminarların keçirilməsi | Dövri olaraq (01.07.2024 01.08.2024 01.09.2024 01.10.2024 15.12.2024) | | Bazar subyektlərinin ictimai birlikləri | Şahin Nağıyev, Xamis Seyranov, Fuad Yadigarov, Faiq Rza |

<table>
<tr><td>6</td><td>Rəqabət Məcəlləsində təsbit edilmiş hökmran mövqe və ondan sui-istifadənin bütün formalarının müzakirə edildiyi seminarın keçirilməsi</td><td rowspan="4">01.07.2024</td><td rowspan="7">İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti)</td><td>Bazar iştirakçıları, hüquqşünaslar və digər maraqlı tərəflər (elm nümayəndələri və s.)</td><td>Fuad Yadigarov, Şahin Nağıyev, Xamis Seyranov</td></tr>
<tr><td>7</td><td>Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi ilə birlikdə Rəqabət Məcəlləsində yer alan yeni anlayışlara və haqsız rəqabət hallarına qarşı dövlət nəzarəti tədbirlərinə dair seminarın keçirilməsi</td><td>Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi</td><td>Şahin Nağıyev, Faiq Rza</td></tr>
<tr><td>8</td><td>Təbii inhisar subyektlərinə Rəqabət Məcəlləsində yer alan əsas müddəalara və onların fəaliyyətinə rəqabət orqanı tərəfindən dövlət nəzarətinə dair maarifləndirici təlimin keçirilməsi</td><td>Təbii inhisar subyektləri</td><td>Xamis Seyranov, Faiq Rza</td></tr>
<tr><td>9</td><td>Azərbaycan Respublikası Vəkillər Kollegiyası ilə birlikdə Rəqabət Məcəlləsinin hüquqi əhəmiyyəti, rəqabət mühitinin qorunmasına dair qanunvericilik çərçivəsinin mahiyyəti, təmərküzləşmə əqdləri üzrə tələblər və Məcəllənin qəbul edilməsindən irəli gələrək ortaya çıxan yeni anlayışlarla bağlı vəkil və hüquqşünaslarda dolğun məlumatlılığın yaranması məqsədilə seminarın keçirilməsi</td><td>Hüquqşünaslıq peşəsi ilə məşğul olan şəxslər</td><td>Fuad Yadigarov, Xamis Seyranov, Şahin Nağıyev, Faiq Rza</td></tr>
<tr><td>10</td><td>Sahəvi tənzimləyici orqanlarla birlikdə Rəqabət Məcəlləsində təsbit edilən yeni anlayışların, bazar iştirakçılarının rəqabət nöqteyi-nəzərdən bazara olan tələblərinin, habelə Məcəllədə təsbit edilən bir sıra digər məqamların müzakirə edildiyi seminarların keçirilməsi</td><td>Dövri olaraq (01.06.2024 01.08.2024 01.10.2024)</td><td>Sahəvi tənzimləyici orqanlar</td><td>Xamis Seyranov, Şahin Nağıyev, Fuad Yadigarov, Faiq Rza</td></tr>
<tr><td>11</td><td>Azərbaycan İnvestisiya Holdinqi və Azərbaycan Sənaye Korporasiyası ilə birlikdə Rəqabət Məcəlləsində təsbit edilən yeni anlayışların, bazar iştirakçılarının rəqabət nöqteyi-nəzərdən bazara olan tələblərinin, habelə Məcəllədə təsbit edilən bir sıra digər məqamların müzakirə edildiyi seminarın keçirilməsi</td><td rowspan="2">01.07.2024</td><td>Azərbaycan İnvestisiya Holdinqi və Azərbaycan Sənaye Korporasiyasının üzvü olan bazar subyektləri</td><td>Xamis Seyranov, Fuad Yadigarov, Şahin Nağıyev, Faiq Rza</td></tr>
<tr><td>12</td><td>Rəqabət Məcəlləsində yer alan yeni anlayışların, onun tətbiq dairəsinin, bazar iştirakçılarının rəqabət qanunvericiliyindən irəli gələn məsuliyyətlərinin, habelə Məcəllənin qüvvəyə minməsi ilə ortaya çıxacaq bir sıra məsələlərin müzakirə edildiyi çoxsessiyalı konfransın keçirilməsi</td><td>Bazar iştirakçıları, biznes assosiasiyaları və ticarət palataları, təbii inhisar subyektləri, sahəvi tənzimləyici orqanlar, mərkəzi icra hakimiyyəti orqanları, hüquqşünaslar və digər maraqlı tərəflər (elm nümayəndələri və s.)</td><td>Fuad Yadigarov, Şahin Nağıyev, Xamis Seyranov, Orxan Məmmədov</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| 13 | Təbii inhisar subyektlərinin göstərdikləri xidmətlərin Rəqabət Məcəlləsi ilə təsbit edilmiş çərçivədə istehlakçı hüquqlarına təsiri mövzusunda təlimlərin keçirilməsi | Dövri olaraq (01.08.2024 01.11.2024 15.12.2024) | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) | Məişət istehlakçıları və sahibkarlar | Xamis Seyranov, Faiq Rza |
| 14 | Təbii inhisar subyektlərinə Rəqabət Məcəlləsində yer alan əsas müddəalara və onların Məcəllə ilə təsbit olunmuş məsuliyyətlərinə dair maarifləndirici təlimlərin keçirilməsi | Dövri olaraq (01.09.2024 01.10.2024) | | Təbii inhisar subyektləri | |
| 15 | Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası ilə birlikdə hakimlər və hakimliyə namizədlər üçün Rəqabət Məcəlləsinin hüquqi əhəmiyyəti, rəqabət mühitinin qorunmasına dair qanunvericilik çərçivəsinin mahiyyəti və Məcəllənin qəbul edilməsindən irəli gələrək ortaya çıxan yeni anlayışlara dair təlimin keçirilməsi | 01.09.2024 | | Hakim və hakimliyə namizədlər | Fuad Yadigarov, Şahin Nağıyev, Xamis Seyranov, Faiq Rza |
| 16 | Təmərküzləşmə əməliyyatlarına dair Rəqabət Məcəlləsində təsbit edilən bir sıra normativ məsələlərin müzakirəsi məqsədilə seminarın keçirilməsi | 01.12.2024 | | Bazar iştirakçıları, ticarət palatalarının nümayəndələri, hüquqşünaslar | Fuad Yadigarov, Faiq Rza |